## Aydın Kazımzadə – 85

# Jurnalistikamızın nüfuzlu kinoşünası

**Azərbaycan kino tarixinin 1916-cı ildən deyil, 1898-ci ildən başlanması faktını üzə çıxarıb təsdiqlətmiş, animasiya kinosunun yaranma tarixinin 1933-cü ilə aid olmasını sübuta yetirmiş jurnalist, kinoşünas, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Aydın Kazımzadə bu gün də araşdırmalarını davam etdirən, qaranlıqlara işıq salan qələm sahibidir.**

O, Azərbaycan kino tarixinin ən dərin bilicisi, canlı ensiklopediyasıdır. Tez-tez hansısa bir faktı dəqiqləşdirmək üçün mötəbər mənbə kimi Aydın müəllimə müraciət edir və onun dediklərini əsas götürürük. Həmişə də məmnuniyyətlə köməyini əsirgəmir. Onun kino tariximizin 18 il əvvələ çəkilməsini faktlarla isbatlaması sayəsində avqustun 2-si Kino İşçiləri Günü elan edilib.

"Kino" qəzetinin və "Film" jurnalının baş redaktoru, Azərbaycan Dövlət Kinematoqrafiya Komitəsi məlumat-reklam bürosunun direktoru, Az.TV-də dublyaj şöbəsinin müdiri, "Azərkinovideo" İB-də reklam şöbəsinin müdiri, Azərbaycan Kino Ensiklopediyasının baş redaktor müavini, icraçı direktoru, Dövlət Film Fondunun direktor müavini və baş mütəxəssisi vəzifələrində çalışmış jurnalist Aydın Kazımzadə həyatda dürüstlüyü, işdə səliqə-sahmanı ilə seçilənlərdəndir.

Onun Azərbaycan kino sənətçiləri haqqında yazdığı məqalələrin, elmi-publisistik yazıların, kitabların hər biri böyük zəhmətin məhsuludur. Heç bir fakta ötəri, üzəvari yanaşmaz, axtarışlarında qəvvas kimi dərinliklərə qədər gedib çıxar. Çünki ortaya "çiy" məhsul qoymaqdan zəhləsi gedir. Aydın müəllim deyir ki, gərək yazdığın hər şey aydın olsun, daşdan keçsin.

Təsadüfi deyil ki, peşəkar kinoşünasın qələmə aldığı "Üzeyir Hacıbəyov və kino", "Sənədli filmlərin ssenariləri", "Kino sənəti məsələləri", "Heydər Əliyev və kinemotoqraf, "Azərbaycan kino sənətində ədəbi əsərlərin təcəssümü", "Kinorejissor Nazim Rza İsrafiloğlu", "Azərbaycan kino tarixi oçerkləri", "Azərbaycan kinematoqrafçıları", "Azərbaycan kinosu. Filmlərin izahlı kataloqu", "Rasim Ocaqov", "Bizim "Azərbaycanfilm" və s. kitabları kinoşünas və kinosevərlər üçün ən mükəmməl mənbədir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində baş verən ictimai-siyasi formasiya dəyişiklikləri Azərbaycan kinematoqrafiyasını da iflic vəziyyətinə salanda ən çox heyfsilənənlərdən biri Aydın Kazımzadə olub. O deyir ki, çətin dövr idi. Bütün kino infrastrukturu dağıdılmışdı, büdcə boş idi. Kinostudiyanın həyətində çayxanalar, restoranlar tikilmişdi. Yaxşı ki, dövlət müstəqilliyimiz qazanılandan az sonra Heydər Əliyev hakimiyyətə qayıtdı və milli kinomuzun da üzünə təzədən gün doğdu. Ulu öndər dedi ki, vəziyyət ağırdır, amma Azərbaycan kinosunu yaşatmalıyıq. Və yaşatdı da. Cənab İlham Əliyev də Azərbaycan kinosuna çox diqqətlə, sevgi ilə yanaşır.

Aydın Kazımzadənin ssenariləri də var. "Atikva" ümid deməkdir" (1994) sənədli filminin ssenari müəllifi odur. Bu maraqlı kinolent Azərbaycanın Quba ərazisində yaşayan yəhudi əhalisindən bəhs edir. O, uzun illər pedaqoji fəaliyyətlə də məşğul olub. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dosent olaraq kino tarixi fənnindən dərs deyib.

Araşdırmçı jurnalistin diqqətçəkən mülahizələri var. Onun qeydlərindən bir misal: "İnsan bir dövrə çatanda düşüncəsi daha da işıqlanır: "Biz sovet dövründə yaşasaq da, həqiqətin harada olmasını artıq bilirdik. Tarixi həqiqətə ən əhəmiyyətli işarələr "Yeddi oğul istərəm" filmində edilmişdi. Zalımoğlunun "Dava eləmək biz müsəlmanlara qalıb?" sualı o dövr üçün ən vacib işarə – dissidentlik hesab edilə bilərdi. Burada artıq sinfi mübarizənin necə qanlı olmasının mesajı verilirdi. Və yaxud filmin sonunda Bəxtiyarın tüfəngi yerə sallayıb çıxıb getməsi xalqın sovet siyasətinin qurbanı olmasına etiraz idi. Gəray bəyin məğrur intiharı da sovet rejiminə üsyan idi. Bunu duymamaq mümkün deyil. "Ulduzlar sönmür", "Qatır Məmməd", "İşarəni dənizdən gözləyin" filmlərində bugünkü bayrağımız əksini tapırdısa da, biz ona fikir vermirdik. 1918-ci ildə qəbul edilən üçrəngli bayrağın tarixini çox az adam bilirdi"…

Dünən Aydın Kazımzadənin 85 illik yubileyi Azərbaycan Respublikası Dövlət Film Fondunda qeyd edildi. Kino ictimaiyyəti, dostları, həmkarları onun xidmətlərini layiqincə dəyərləndirdilər, araşdırmaçı jurnalistə can sağlığı, yeni uğurlar dilədilər. Biz də Azərbaycan kinosunun gələcəyinə inanan, yubiley yaşında belə yorulmadan çalışan tanınmış qələm sahibini ürəkdən təbrik edirik!

***Xədicə QİYAS,***
***Əli NƏCƏFXANLI***
***XQ***